## THE METNODS OF USING PROKOFEV'S FORTEPIANO ARTWORK DURING EXTRACURRICULAR ACTIVTIES AT SCHOLL SCHOOLS FOR STUDENTS MUSICAL UPBRINGING

***Mammeadova Qasira Tofik***

***Summary***

In this article, by using esteemed soviet and Russian composer Sergey Sergeyevich Prokofev's work in extracurricular activities in all schools as one of tools within mod ern requirements to help the musical education and upbringing has been analyzed. Specific charachteristhics of composers work related to musical culture has been emph asized.

***Rəyçi: GDU-nun "Musiqi fənləri kafedrasının" baş müəllimi G.Məhərrəmova***
***Musiqi fənləri kafedrasının 11 mart 2021-ci il tarixli kafedra iclasının 08 saylı protokolu***
***Daxil olma tarixi 24 aprel 2021-ci il***

**UOT:784.**

## MODEST PETROVİÇ MUSORQSKİNİN VOKAL YARADICILIĞI VƏ TƏDRİS PROSESİNDƏ ONDAN İSTİFADƏ

***Məmmədova Rəşidə Hamlet qızı***
***Gəncə Dövlət Universiteti***
***rashida.mamedova.68@mail.ru***

**Xülasə:** *Modest Petroviç Musorqski – "Qüdrətli dəstə"nin fəal üzvi XIX əsrin II yarısında rus musiqisində "altmışıncılar" hərəkatının görkəmli nümayəndəsidir. 1860-cı illərin qabaqcıl demokratik ideyaları onun istedadının formalaşmasında əhəmiyyətli rol oynamışdır. O, insan amilinə böyük önəm verərək ehtiyac və ədalətsizliyin zərbəsi altında inləyən rus kəndlisinin yanında yer almış, onun dərdinə, kədərinə şərik çıxan "Qüdrətli dəstə" üzvləri arasında xüsusi yeri olan bəstəkardır.*

*Musorqski rus musiqisini bir çox nailiyyətlərlə, yeniliklərlə zənginləşdirmiş sənətkardır. Onun əsərləri həm müraciət etdiyi mövzu və obrazlar baxımından, həm musiqi dili cəhətdən bir çox yeni xüsusiyyətlər daşıyırdı.*

*M.Musorqski musiqi ifadə vasitələrini xeyli yeniləşdirmiş bəstəkar idi. Onun harmoniya sahəsində istifadə etdiyi koloristik effektəlr o dövr musiqisi üçün tamamilə yeni idi.*

*Bir sənətkar kimi Musorqski tarixi faktlardan çox yüksəkdə dayanaraq, bunların dini, milli, ictimai səbəblərini araşdırır və müxtəlif dövrlərdə xalqın taleyindəki oxşar məqamları müqayisə etməklə sanki mürəkkəb vəziyyətdən çıxış yolunu göstərməyə çalışırdı.*

**Açar sözlər:** musiqi, mahnı, bəstəkar ,opera, yaradıcılıq
**Ключевые слова:** музыка, песня, композитор, опера, творчество
**Key words:** music, song, composer, opera, education

XIX əsrin ən görkəmli bəstəkrlarından biri olan M.P.Musorqski rus musiqisinə bənzərsiz əsərlər bəxş etmişdir. Bir musiqiçi kimi də, vətəndaş kimi də milli mənsubiyyətini, doğma vətəninə sədaqətini öz fəaliyyəti, yaradıcılığı ilə dönə-dönə təsdiqləmiş bəstəkardır.

Yaradıcı bir şəxsiyyət, novator musiqiçi kimi Musorqskinin nailiyyətləri milli mədəniyyətin hüdudlarını çoxdan adlayaraq, aid olduğu zaman çərçivəsini də aşmış, ümumdünya mədəniyyətinin mənəvi sərvətləri sırasına daxil olmuşdur.

M.P.Musorqski musiqi tarixinə görkəmli realist sənətkar kimi daxil olmuşdur. O, öz əsərlərinin mümkün qədər həyatiliyinə, həqiqətə uyğun olmasına çalışırdı.

Haqsızlıqla barışmayan, insan əzablarına həssas olan, tərəqqipərvər rus bəstəkarları arasında o, xüsusi yer tuturdu.

Musorqskinin, sənətin mahiyyəti, məqsəd və vəzifələri barədə fikirləri bir başa tənqidçi - realist ədəbiyyatın və inqilabçı – demokratların qeydlərinin təsiri altında formalaşmışdır.

Modest Petroviç Musorqskinin uşaqlıq illəri Pskov Quberniyasını Toropedski qəzasının Karevo kəndində keçmişdir. Kiçik yaşlarına baxmayaraq bəstəkar xalqın musiqisi ilə yaxından tanış olmuş, xalq sənətinin sirlərinə yiyələnmişdir. Musorqski artıq 9 yaşında fortepianoda gözəl ifa edir və insanların qarşısında konsert verməkdən belə çəkinmir, hətta musiqilər bəstələməyə cəhd edirdi.

Sakit kənd həyatı o illərin qapalı hərbi təhsil müəssisəsində hökm sürən kəskin ziddiyyət Musorqskinin təbiətinə təsir etmişdir.

Preobrajenski Qvardiyası məktəbindən məzun olduqdan sonra 1856-cı ildə Musorqski alayda zabit kimi qəbul edilir və bununla yanaşı, musiqi məşğələlərini də davam etdirirdi.

Peterburqa gəlişindən etibarən məhşur fortepiano müəllimi Görkedən dərs alır və böyük uğurlar qazanırdı.

1856-cı ildə Musorqskinin musiqi həvəskarı olan hərbçi yoldaşlarından biri, onu Darqomıjski və Qlinka ilə tanış edir. Həmin vaxt musiqiçilərin realizm və milliyət uğrunda mübarizəsini öyrənən Musorqski Darqomıjskinin dərnəyinə qatılmağa başlayır. Kyui və Balakirevlə tanışlıqdan sonra Stasovla tanış olur. Balakirevdən bəstəkarlıq dərsləri almağa başlayır. Bu görüşlər Musorqskinin bütün həyatının axarını kəskin şəkildə dəyişir. Bu görüşlərin sayı artıqca "Qüdrətli dəstə" nin təməli qoyulur. Çox keçmədən Borodin və Rimski-Korsakovda bu dəstəyə qoşularaq möhtəşəm beşlik yaradırlar.

Tezliklə özünü yalnız musiqiyə həsr etmək üçün hərbi karyerasından imtina etməyə qərar verir. 1858-ci ildə təqaüdə çıxır. Həyatında yeni, əhəmiyyətli bir dövr başlayır.

Ancaq o illərdə musiqi işi yeni başlayan bir bəstəkar üçün dolanışıq mənbəyi ola bilmədi və maddi çətinliklər tezliklə Musorqskini məmur vəzifəsində çalışmağa məcbur etdi. Kargüzarlıq işi onu sevdiyi musiqi işindən ayırırdı.

60-cı illərdə qarşısında duran çətinliklərə baxmayaraq yaradıcılıq həvəsi Musorqskini alovlandırırdı. Qısa müddətdə Balakirevdən musiqi dərslərini almağına baxmayaraq bəstəkarlıq ustalığı ondan deyil,məhz bəstələmək praktikasından əldə edirdi. Bəstəkarın musiqiçi səviyyəsinə yüksəlməsinə Qlinka, Motsart, Bethoven və digər bəstəkarların irsini müstəqil olaraq inadla öyrənməsi və müasirlərinin yeni görkəmli musiqi əsərləri ilə tanışlığı kömək edirdi.

Musorqski rus tarixinin keçmiş səhifələrinə üz tutur və o dövrlərdə baş verənləri əks etdirməklə öz zəmanəsinin sosial və siyasi problemlərinə cavab axtarırdı. Stasovun dediklərinə nəzər salsaq: ""Ədalətli" və "ədalətsiz" fikirləri Musorqskinin açıq şəkildə nəzərdə tutduğu ictimai fikirləri idi" [7.111].

Kəndlilərin acınacaqlı həyatı, hüquqsuzluğu bəstəkarı düşündürürdü. Bu baxımdan o etiraz olaraq həmin mövzuda "Boris Qodunov", "Xovanşina", "Soroçinskaya yarmarka" operaları, çoxlu sayda mahnılar, instrumental əsərlər və s. yazır. 1870-ci illərin əvvəllərində Rusiyada üç görkəmli tarixi əsərlər meydana çıxmışdır. Bu əsərlər M.Musorqskinin "Boris Qodunov", N.A.Rimski-Korsakovun "Pskovlu qız" və P.Çaykovskinin "Opriçnik" operaları idi. Onların hamısı o zamankı qabaqcıl demokratrik gənclər tərəfindən çox səmimi qarşılanmışdı [4.143].

Sənətşünaslıq elmləri doktoru, professor Ş.Həsənova "Musiqi tarixindən mühazirələr" adlı kitabında M.P.Musorqskinin həyat və yaradıcılıq yolunu geniş göstərmişdir. Müəllif qeyd edir: "XX əsrin bəstəkarlarının musiqi dilinin xüsusiyyətlərini özündə daşımaqla sanki

gələcək dövrü qabaqlamışdır. Musiqi ilə sözün vəhdəti problemi Musorqskini cəlb etdiyinə görə, o, yaradıcılığında əsas yeri vokal janrlara yəni opera və mahnı janrlarına vermişdir" [2.45].

Vokal yaradıcılığı Musorqskinin yaradıcılığında əsas və başlıca yer tutur. Vokal yaradıcılığında lirik xəttin kiçik olması ondan irəli gəlir ki, o ozünü deyil müxtəlif xarakterli insanları göstərə bilmişdir. Vokal yaradıcılığın əsasını ictimai mövzu tutur.

60-cı illərdə Musorqski vokal əsərlərində Darqomijskinin yaratdığı janrları (xarakterik monoloqlar, musiqi portretləri ) inkişaf etdirir. Bəstəkarın ilk romansları və mahnıları "Gənc illər" adlı bir topluda nəşr olunmuşdur.

Musorqskinin vokal yaradıcılığı bir neçə qrupa ayrılır :

1. Nekrasovun, Şevçenkonun, Ostrovskinin və s. müasir müəlliflərin poetik mətnləri üzərində yazılmış əsərlər daxildir: "Kalistrat", "Eremuşkanın layla"sı və s.

2. Musorqskinin sözlərinə yazılmış romanslar: "Yetim", "Klassik", "Nadinc", "Semenariyaçı".

Bəstəkarın Nekrasovun sözlərinə bəstələdiyi "Kalistrat" mahnısı bu topluda əsas yer tutur. 1864-cü ildə yazılmış bu mahnı Musorqskinin vokal yaradıcılığının başlanğıcı oldu. Bu romansda yoxsul kəndlinin ağır həyatı təsvir olunur. "Mətn qəhrəmanın özü tərəfindən rəvayət olunur. Monoloq formasındadır. Bir-birinə əks olan musiqi epizodu üzərində qurulmuşdur" [7.122].

"Yeremuşkanın laylası" mahnısının sözləri də Nekrasovundur. Bu mahnı yoxsul kəndli qadının yoxsulluq və qaranlıq şəraitdə dünyaya gələn oğluna laylasında xoşbəxt həyat görməsi arzusunu göstərir.

Sosial tənqid mövzusu Musorqskinin vokal yaradıcılığının əsas istiqamətini müəyyənləşdirir. Bəzi ittiham məzmunlu əsərlərində bəstəkar həqiqətən faciəvi bir gücə sahib olur. Digərlərində zarafat və ya günahsız görünən gündəlik eskiz adı altında müasir həyatın aktual suallarını ortaya qoymuş satira Musorqskinin vokal musiqisində mühüm yer tutur.Daha sonra Musorqski özünün "Xalq şəkilləri" adlandırdığı bu əsərlərdə mövzunun kəskinliyi və yeniliyi ifadə vasitələrinin dərin orijinallığı və özünəməxsusluğu ilə birləşdirilmişdir.

"Xalq şəkilləri" toplusunda olan mahnıların süjet əsası var. Onlar monoloq şəklində yazılmışlar, yəni, müəllifin adından deyil, konkret bir personaj adından ifadə edilir. Dinləyici danışanın obrazını, xarakterini , hisslərini, sosial mənsubiyyətini aydın şəkildə təsəvvür edə bilir.

Bəstəkarın müxtəlif vokal əsərləri arasında mərkəzi yeri Qolenişev-Kutuzovun sözlərinə - "Unudulmuş" balladası və "Ölüm mahnıları və rəqsləri" dramatik mahnıları tutur.

Bu əsərlər 60-cı illərin əvvəlində "Xalq şəkilləri" ndə qoyulan sosial ifşa mövzusunu davam etdirir. Bu mahnılar Musorqskinin yaradıcılığında yeni bir mərhələdir.

"Unudulmuş" və "Ölüm mahnıları və rəqsləri" artıq gündəlik eskizlər deyil. Bunlar faciəvi mahiyyəti bir başa açıqlanan, gündəlik komediya ilə əhatə olunmayan, bəzən 60-cı illərin əsərlərində olduğu kimi həyatın bütün dramatik səhnələridir. "Unudulmuş" və "Ölüm mahnıları və rəqsləri " Musorqskinin kamera vokal yaradıcılığının zirvəsini təşkil edir. Böyük həqiqətin sorağıyla sənətə gələn Musorqski sənətkar və vətəndaş kimi tutduğu mövqeyi ilə, irəli sürdüyü cəsarətli ideyalarla, novatorluğunun vüsəti etibarilə, öz missiyasına sədaqəti ilə adını tarixdə əbədiləşdirmiş, onun yaratdığı əsərlər isə ümumdünya mədəniyyətinin heç vaxt əhəmiyyətini itirməyən, daim müasir səslənən musiqi inciləri sırasına daxil olmuşdur.

***Ədəbiyyat***


1. Hüseynova T. Rus musiqi tarixi ( XIX əsrin birinci yarısı). Bakı, 1981.
2. Həsənova Ş. Musiqi tarixindən mühazirələr. II hissə. Bakı, 2012.

3. Rus musiqisinə dair metodik göstərişlər. Tərtib edən T.Hüseynova. Bakı, ADPU, 1985.
4. Konen İ. Pyotr İliç Çaykovski. Bakı,1962.
Rus dilində:
5. Асафьев Б. О музыке XX века. Ленинград, 1982.
6. Смирнова Э. Русская музыкальная литература. Издательство Музыка, Москва, 1981
7. Фрид Э.Русская музыкальная литература. Издательство Музыка, Ленинград, 1972.
**Saytoqraiya:**
www .musiqi-dünya.az

## ВОКАЛЬНОЕ ТВОРЧЕСТВО МОДЕСТА ПЕТРОВИЧА МУСОРГСКОГО И ИСПОЛЬЗОВАНИЕ ЕГО В УЧЕБНОМ ПРОЦЕССЕ

***Мамедова Рашида Гамлет кызы***

***Резюме***

Среди композиторов «Могучей кучки» Мусоргский был наиболее ярким выразителем в музыке революционно – демократических идей 60-х годов XIX века.

Мусоргский - композитор подлинно народный, посвятивший все свое творчество рассказу о жизни , горестях, беззаконий и социально –политических проблем. Вокальная музыка занимает основное место в творчестве Мусоргского.

## MODEST PETROVICH MUSORGSKI'S VOKAL CREATIVITY AND IT'S IN THE EDUCATION PROCESS

***Mammadova Rashida Hamlet***

***Summary***

Modest Petrovich Musorgski has brightly showed the revolutionary –democratic ideas of russian music in the II half of the 19 th century, Musorgski devoted his creativity to his own people's miserable life, lawlessness, social and political problems. Vocal music is the main place of Musorgsky`s creative work.

***Rəyçi: GDU-nun "Musiqi fənləri" kafedrasının müəllimi S.Məhərrəmova***
***Musiqi fənləri kafedrasının 11 mart 2021-ci il tarixli kafedra iclasının 09 saylı protokolu çıxarışı***
***Daxil olma tarixi 24 aprel 2021-ci il***

**UOT:781.**

## A.S. DARQOMIJSKİNİN NƏZƏRİ-ESTETİK PRİNSİPLƏRİ

***Nəbiyeva Leyla Məzahir qızı***
***Gəncə Dövlət Universiteti***
***nabiyeva. leyla@inbox.ru***

**Xülasə:** *Məqalə XIX əsrin rus musiqi mədəniyyətinin görkəmli nümayəndəsi Alekdandr Sergeyeviç Darqomıjskinin( 1813-1869) yaradıcılığının öyrənilməsinə həsr olunmuşdur.*

*A.S.Darqonmıjski rus musiqi sənətində yeni yollar açmış qüdrətli bəstəkarlardan biridir. Bəstəkar M.İ.Qlinkanın yaratdığı yolu ilə getmiş və onun əsas yaradıcılıq müvəffəqiyyətlərini mənimsəmişdir.*

*Darqomıjskinin dünyagörüşü, estetik və bədii zövqü XIX əsrin 30-40-cı illərində formalaşmışdı. Bu, rus mədəniyyətinin inkişafında böyük, müsbət dəyişiklilər baş verən dövr idi. Darqomıjskinin hələ ilk əsərlərində dövrün mütərəqqi ideyaları öz əksinin tapırdı. O, Risiyanın ən görkəmli yazıçı, rəssam və bətəkarları ilə bir sırada gedərək, musiqidə realizm istiqamətini bərqərar edib.*